1_Layout 1 28.11.2023 15:24 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 23 (662)

30 noyabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# REGİONUN DAYANIQLI İNKİŞAF PLATFORMASI

## SPECA-nın Bakı Zirvə görüşündə qəbul edilmiş Yol Xəritəsi daha böyük uğurlara hədəflənib

**"Azərbaycan" qəzetinin müxbiri Flora Sadıqlının müəllifi olduğu "Regionun dayanıqlı inkişaf platforması" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**




Artıq dünya Azərbaycanı, həm də onun təkcə paytaxtını deyil, bir sıra digər şəhərlərini də möhtəşəm beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirildiyi məkan kimi tanıyır. Bu dəfə də Bakı həmin qəbildən daha bir tədbirə, əslində, bütün regionun dayanıqlı inkişaf platforması, Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsinə ev sahibliyi etdi.

Həftədə geniş tədbirlər proqramı reallaşdırıldı. Noyabrın 24-də isə Heydər Əliyev Mərkəzində SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirildi. Tədbirin məqsəd və məramı Prezident İlham Əliyevin buradakı çıxışının elə əvvəlindəcə öz aydın əksini tapdı: "Bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir. İyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir. Zirvə görüşünün keçirilməsi ilə əlaqədar Azərbaycanın təşəbbüsünə dəstək verdikləri üçün Mərkəzi Asiya ölkələrinin rəhbərlərinə təşəkkürümü bildirirəm. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mənim dəvətimlə bu gün Zirvə görüşündə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi fəxri qonaqlar qismində iştirak edirlər. Əminəm ki, bu tərkibdə keçirilən Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq".

Xatırladaq ki, SPECA proqramına üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. 1998-ci ildə yaradılan proqrama Azərbaycan 2002-ci ildə qoşulub və birliyin fəal üzvlərindəndir. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Odur ki, hər birinin qarşısında çoxsaylı problem və çağırış dayanırdı. İndi həmin çağırışların əsas hissəsi artıq arxada qalıb. Bu ölkələr dövlət suverenliyini möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişlər. Heç uzağa getməyək, elə öz ölkəmizdəki inkişafı təsdiqləyən bir neçə rəqəmi misal göstərək, zəngin iqtisadi resursları, dayanıqlı və inklüziv inkişaf modelini, rəqəmsal iqtisadiyyatın irəliləməsi istiqamətində görülən işləri, getdikcə genişlənən ticarət əlaqələrini xatırladaq. Son 20 il ərzində Azərbaycanda ümumdaxili məhsul istehsalı (ÜDM) 6,2 milyard dollardan 78,7 milyard dollara çatıb. Bu, ÜDM-in real həcminin 4 dəfə artması deməkdir. Dövlət büdcəsinin gəlirləri 2002-ci ildə olduğu 0,9 milyard dollardan 20 dəfədən çox artaraq 18,01 milyard dollara yüksəlib. Sənayeləşmə siyasəti nəticəsində əldə olunan nailiyyətlər, istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi, sənaye parkları və məhəllələri, qeyri-neft sənayesinin dinamik inkişafı da ürəkaçandır. 2002-2023-cü illərdə ölkədə 4 mindən çox sənaye müəssisəsi yaradılıb.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumdaxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb. Əlverişli investisiya mühiti yaradılıb. Son iki onillikdə ölkə iqtisadiyyatına 310 milyard dollardan çox sərmayə qoyulub. Bunun da 200 milyard dollara yaxını qeyri-enerji sektorunun payına düşür. Ölkəmiz artıq Avrasiyanın "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Bu və digər faktlar da təsdiq edir ki, SPECA-ya üzv dövlətlər müstəqildirlər, müstəqil xarici, daxili, iqtisadi siyasət aparırlar. SPECA həftəsi də onların məhz həmin zəmindən çıxış edərək birbirilə əlaqələrini getdikcə möhkəmləndirmək istiqamətində irəliyə doğru daha bir yeni addım oldu.

Bu, SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Prezident İlham Əliyevlə görüşlərindəki söhbətlərin məzmunundan da aydın göründü. Məsələn, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi məmnuniyyətlə qeyd olundu. Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması və ölkəmizin nəqliyyat imkanlarından istifadə edilməsi, bütövlükdə nəqliyyat-logistika imkanlarının və "Trans-Xəzər" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin "Rəqəmsal İpək yolu" layihəsinin və Xəzər dənizinin dibi ilə xəttin çəkilməsi məsələsinin əhəmiyyəti və burada ölkələrimizin işbirliyi məmnuniyyətlə qeyd edildi. Eləcə də Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Orta dəhliz üzrə multimodal əməkdaşlığın qurulması və bu xüsusda ayrıca şirkətin yaradılması həmin istiqamətdə nəqliyyat-logistika imkanlarının inkişaf etdirilməsi baxımından müsbət irəliləyiş kimi vurğulandı. Energetika sahəsində Azərbaycan-Qazaxıstan-Özbəkistan üçtərəfli əməkdaşlığı, Xəzərin dibi ilə elektrik xəttinin çəkilməsi və bunun gələcəkdə Avropa istiqamətində ixracı qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın hazırda Bakı-Tbilisi-Qars dəmir yolu ilə yanaşı, ölkəmizin cənub regionları istiqamətində İran ərazisindən keçməklə Naxçıvana və Türkiyə tərəfindən Qars-İğdır dəmir yolu xəttinin qurulması ilə yeni bir alternativ nəqliyyat dəhlizi formalaşdırmasının ötürücülük qabiliyyətinin və nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini diqqətə çatdırdı.

Əslində, bunlar bütün region, hətta daha geniş bir məkan üçün mühüm əhəmiyyət daşıyan məsələlərdir. Qeyd olunduğu kimi, Macarıstanın Baş naziri Viktor Orban SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak etdi. Bu da bir daha onu göstərdi ki, ölkələrimiz arasında iqtisadi inteqrasiya daha da dərinləşir, Mərkəzi Asiyanı Xəzər dənizi və Qara dənizlə birləşdirən nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə yeni əməkdaşlıq layihələri və platformaları inkişaf etdirilir. Azərbaycanın işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasiminin Macarıstanla birgə həyata keçirilməsi böyük əhəmiyyətə malik bir hadisədir. Bu layihə macar şirkətlərinin iştirakı ilə icra olunacaq.

Prezident İlham Əliyev tərəfindən SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvət olunanlardan biri də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili idi. Dövlətimizin başçısı və qonşu ölkənin Baş naziri arasında söhbətin əsnasında Azərbaycanla Gürcüstan arasında mehriban dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu. "Trans-Xəzər" nəqliyyat dəhlizinin inkişafı və bu xüsusda Gürcüstan, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

Son olaraq onu da qeyd edək ki, SPECA-nın Zirvə görüşünün yekununda Bakı Bəyannaməsi və Orta dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi sənədləri qəbul edildi. Yollar isə daha yeni hədəflərə çağırır, daha böyük nailiyyətlərə doğru aparır.

# Nazir Vilayət Eyvazov Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirib









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 14-də və 15-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Gəncə şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Gəncə, Kəlbəcər, Xocalı, Goranboy, Samux, Göygöl, Naftalan və digər rayonlardan qəbula gələn 120 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Qaldırılan məsələlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN-in Daxili Qoşunlarının Gəncədə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Hərbi hissənin qərargahında komandir heyəti ilə keçirilən əməliyyat müşavirəsində nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Bundan sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. 45 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 225 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 28.11.2023 18:51 Page 1



# DAXİLİ İŞLƏR NAZİRİ XİDMƏTƏ QƏBULLA BAĞLI SIRA BAXIŞI KEÇİRİB





Noyabrın 25-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 15 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

# HƏRBİ PROKURORLUQ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 100 İLLİK YUBİLEYİ İLƏ BAĞLI QƏBƏLƏDƏ TƏDBİR KEÇİRİB



Hərbi Prokurorluq Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı silsilə tədbirləri davam etdirir.

Hərbi Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və ictimaiyyəti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları ilə birgə keçirilən tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsinin və şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək nəhəng tarixi şəxsiyyətin və qəhrəman Vətən övladlarının ruhlarına ehtiram ifadə olunub.



Ulu Öndər Heydər Əliyevin və bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Baş prokurorun müavini - Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Qəbələ rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və digər çıxışçılar müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.



Çıxışçılar, eyni zamanda, xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrlərdə prokurorluğun, eləcə də Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Daxili Qoşunlarla, bununla yanaşı, aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb, xidmətdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Hərbi Prokurorluq tərəfindən noyabrın 16-da Lənkəran şəhərində də ictimaiyyət nümayəndələri, o cümlədən şəhid ailələrinin üzvləri və qazilərin, eləcə də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə tədbir keçirilib. Hər iki tədbirdə Daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB



Noyabr ayının 22-23-də Daxili Qoşunların Təlim mərkəzində Ali Hərbi Məktəbin rəisi və hərbi hissə komandirləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışın məqsədi təlim iştirakçılarının rəhbər sənədlərin tələbləri üzrə biliklərinin, fərdi hazırlıqlarının vəziyyətinin müəyyən edilməsi, idarəetmə, həmçinin müxtəlif tapşırıqların icrası zamanı qərarvermə bacarıqlarının təkmilləşdirilməsi olub.

İlk olaraq, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının əmri, toplanışın keçirilməsinə dair tədbirlər planı, məşğələ cədvəli, toplanış iştirakçılarının siyahısı, qiymətləndirmə cədvəlləri, eləcə də iş xəritələri və müxtəlif şərti əməliyyat şəraitləri hazırlanıb. Metodiki-təlim toplanışına ümumilikdə 14 nəfər hərbi qulluqçu cəlb olunub.

Təsdiq olunmuş cədvələ uyğun olaraq, Daxili Qoşunların Baş İdarəsinin zabitləri tərəfindən müxtəlif tapşırıqların icrası zamanı hərbi hissələrin və bölmələrin, qoşun təsərrüfatının idarə edilməsi, döyüş xidmətinin təşkili, hərbi intizamın möhkəmləndirilməsi, tərbiyə işinin planlaşdırılması, döyüş təlimi və ictimai-siyasi hazırlıq üzrə, eləcə də xəritələrlə iş istiqamətlərində məşğələlər təşkil edilib. Toplanış iştirakçılarından fiziki hazırlıq üzrə yaş qruplarına görə müvafiq normativlərdən məqbullar götürülüb. Bundan əlavə, hərbi qulluqçulara şərti olaraq müəyyən edilmiş əməliyyat şəraitinə uyğun iş xəritələri paylanılıb, yaradılan təlim qruplarına vaxt verilərək qərarın və ilkin sərəncamın hazırlanması, müvafiq qərarların iş xəritələrinə işlənilməsi təmin edilib. Qərarlar dinlənilərək, iş xəritələri təhlil olunub, mövcud çatışmazlıqlar diqqətə çatdırılıb və nəticələr qiymətləndirilib.

Tədbirin sonuncu günü Daxili Qoşunların Baş İdarəsində Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı tərəfindən toplanış iştirakçılarına sahələr üzrə, eləcə də idarəçilik fəaliyyətinin təkmilləşdirilməsi, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və hərbi intizamın möhkəmləndirilməsi istiqamətlərində kəsərli tədbirlər görülməsi barədə müvafiq tapşırıq və tövsiyələr verilib.

**kapitan Xədicə Hacızadə**

# BÖLMƏLƏRİN HAZIRLIĞI YOXLANILIB

Oktyabrın 24-dən 27-dək 12565 saylı hərbi hissənin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi bölmələrində idarəetmənin, döyüş hazırlığının və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən daxili qoşunların baş idarəsinin qərargahının əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabiti polkovnik-leytenant Orxan Bədirxanov bildirib ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi-taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq xüsusi bölmələrə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi üzrə qrup, yarımqrup komandirlərinin, həmçinin şəxsi heyətin bilik və bacarığına əsas diqqət yetirilib.



Yoxlama zamanı müəyyən olunub ki, xüsusi bölmələr qarşıya qoyulan tapşırıqların icrasına ümumən hazırdırlar, dəstə komandirləri polkovnik-leytenant Mahir Səfərov və kapitan Turqay Musazadənin iş üslubu və idarəçilik fəaliyyətləri qənaətbəxşdir. Hərbi hissədə döyüş təlimi rəhbər sənədlərin tələblərinə uyğun olaraq təşkil olunub keçirilir.



Bundan əlavə, təlim məqsədilə xüsusi bölmələrin qüvvə və vasitələri həyəcan siqnalına gətirilərkən onların silahlanması, ekipirovkası, texnikanın və şəxsi heyətin düzülüş yerinə çıxması, hərbi qulluqçuların və maddi vəsaitlərinin avtomobillərə yerləşməsi yoxlanılıb. Müvafiq komanda üzrə bölmələrin şəxsi heyəti tapşırıqları uğurla yerinə yetirib. Döyüş hesabatına uyğun olaraq qruplar təyin edilib, qüvvə və vasitələrin hesabatı, avtomobillərdə hərəkət edən hərbi qulluqçuların siyahıları dəqiqləşdirilib.

Həmçinin xüsusi təyinatlı bölmədə iş zamanı komandir heyəti ilə Daxili Qoşunların taktiki hazırlığı üzrə “Xüsusi əməliyyatın təşkili və keçirilməsində komandirin işi”, atəş hazırlığı üzrə “Bölmə ilə atıcılıq məşqləri, döyüş atışlarının təşkili və keçirilməsi metodikası”, xüsusi-taktiki hazırlıq üzrə “Döyüş meydanında irəliləmə, qəflətən atışın açılması zamanı atıcının və heyətin fəaliyyəti”, şəxsi heyətlə isə fiziki hazırlıq üzrə “Kompleks və xüsusi məşqlərin yerinə yetirilməsi” mövzularında nümunəvi məşğələlər təşkil olunub.

Tapşırığa əsasən, bölmələrin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə “Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti” və “Hərbi qulluqçuların davranışları haqqında” mövzularında söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıq və tövsiyələr verilib.

Bundan əlavə, bölmə komandirlərinə yoxlamanın nəticələrinə görə bölmələrin idarə edilməsi üzrə iş sisteminin təşkili və bununla bağlı rəhbər sənədlərin tələbləri izah olunub.

**mayor Anar Əhmədov**

3_Layout 1 28.11.2023 15:23 Page 1



*Şəhidlərimiz*

# QƏLƏBƏMİZƏ CƏSUR DÖYÜŞÇÜ KİMİ LAYİQLİ TÖHFƏSİNİ VERDİ...

44 günlük Vətən müharibəsində düşmən üzərində qazanılan möhtəşəm hərbi zəfər dövlətimizin və xalqımızın qüdrətini bütün dünyaya göstərib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Silahlı Qüvvələrimiz tarixi qələbəyə imza ataraq ölkəmizin ərazi bütövlüyünü bərpa edib. 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə Qarabağ bölgəsində suverenliyimiz tam bərqərar olunub.

Xalqımızın haqq və ədalətə söykənən, Vətən sevgisindən güc alan, döyüş meydanında yenilməz iradə ortaya qoyan, müqəddəs amal uğrunda həyatını qurban verən bir çox qeyrətli övladı şəhidlik zirvəsinə ucalıb.

Vətən müharibəsi şəhidlərindən biri - əsgər Bayramlı Tural Ədil oğlu Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu olub. Onun ailəsi və silahdaşları ilə əlaqə saxlayaraq, şərəfli ömür yolunun ayrı-ayrı məqamları barədə suallar ünvanladım, habelə bir sıra sənədlərdə öz əksini tapan faktları da qeydə aldım.

Tural 1996-cı il fevralın 10-da Beyləqan rayonunun Şərq qəsəbəsində doğulub. Babasının adını özünə soyad götürüb. Qarayevlər ailəsi əslən Cəbrayıl rayonundandır. Atası Ədil Qarayev Daşveysəlli, anası Əfruz Qarayeva isə Sofulu kəndlərində dünyaya göz açıblar. Şəhidin özündən bir yaş kiçik olan Amin adlı qardaşı var.

1993-cü ilin avqust ayında Cəbrayıl rayonu işğal olunduqdan sonra valideynləri doğma yurdlarından məcburi köçkün düşüblər. Onlar Beyləqan rayonuna pənah gətiriblər. Əvvəlcə Şərq qəsəbəsində məskunlaşıblar. Sonra Qəhrəmanlı qəsəbəsinə köçüblər, hazırda orada yaşayırlar. Məcburi köçkün ailəsində böyüyərək boya-başa çatan Turala valideynləri əcdadların mirası olan torpağa bağlılıq hissləri, çətinliklərə sinə gərməyi, zəhmətkeşlik və xeyirxahlıqla el-obanın gözündə ucalmağı aşılayıblar. O, xaraktercə ailəcanlı, dostluğa sadiq, böyük-kiçik yeri bilən, başqasının etibarına dəyər verən və bunu qoruyan, ünsiyyətində az danışan, dediyi sözün arxasında duran gənc kimi formalaşıb. İdmanla həvəslə məşğul olub, müxtəlif alətlərlə məşq edib, fiziki gücünü artırmağa xüsusi diqqət yetirib.

Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayonu Dağtumas kənd tam orta məktəbini bitirib. Orta məktəbdə tarix, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənləri ilə daha çox maraqlanıb. Müəllimləri onun vətənpərvər əqidəli vətəndaş kimi yetişməsində vacib rol oynayıblar. Həmişə onlara hörmətlə yanaşıb.

2014-cü ilin oktyabr ayında Tural müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Gəncə şəhərində və Tərtər rayonundakı "N" saylı hərbi hissələrində xidmət keçib. Yüksək fiziki hazırlığına, taktiki təlimlərdə fərqləndiyinə görə, habelə fərdi bacarıqları nəzərə alınaraq, o, kəşfiyyat bölüyünə seçim mərhələsini adlayıb.



Bölükdə kəşfiyyatçı kimi öz cəsarəti və çevikliyi sayəsində verilən tapşırıqların öhdəsindən gəlib. Düşmənlə təmas xəttində ön mövqelərimizin müdafiəsində qətiyyətlə dayanıb. 2016-cı ilin aprel ayında erməni işğalçılarına qarşı bir neçə gün davam edən döyüşlərdə iştirak edib, Həsənqaya yüksəkliyi, Şiştəpə deyilən ərazi, "Mübariz postu" istiqamətlərində vuruşub. İşğalçıların şiddətli artilleriya atəşi nəticəsində Tural gil torpaq uçqunu altında qalıb, lakin təhlükəli yerdən çıxarılıb. Beləliklə, bu döyüşlər onun həyatının ilk müharibə sınağı idi. Həmin sınaqdan alnıaçıq çıxıb. 2016-cı ilin aprel ayının 25-də ordu sıralarından ehtiyata buraxılıb və sağ-salamat evə qayıdıb.

Bir neçə ay sonra Tural həyatını hərbçi peşəsinə bağlamağa dair qəti qərar verib. Xüsusi təyinatlı bölmədə xidmət etməyi arzulayıb. Hərbçi olmaq qərarına valideynləri də xeyir-dua veriblər. Daxili Qoşunların komandanlığına xidmətə qəbulla bağlı müraciəti müsbət cavablandırılıb.

2016-cı ilin sentyabr ayının 21-də Tural Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 12318 saylı hərbi hissədə öncə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, sonra isə imtahan verməklə xüsusi təyinatlı dəstəyə keçirilərək atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun, o cümlədən snayper yarımqrupunun heyət nəfəri vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşları arasında hörmət qazanıb. Döyüş təcrübəsinə malik peşəkar hərbi qulluqçu kimi şəxsi heyətə nümunə olub. Verilən hər bir tapşırığı məsuliyyətlə yerinə yetirib. Xüsusi təyinatlı adının şərəfini qoruyub. Müharibənin sərt üzünü görmüş hərbi qulluqçu kimi özünü yeni döyüş sınaqlarına hazırlayıb.

12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri polkovnik-leytenant Anar Rizvanov Vətən müharibəsi iştirakçısıdır. Ötən bir neçə müsahibəsində dəstənin şəhidləri haqqında xatirələrini mənimlə bölüşüb. Məlumat verdi ki, dəstədən 9 nəfər xüsusi təyinatlı şəhidlik zirvəsinə ucalıb. Tabeliyində xidmət etmiş Tural barədə bildirdi ki, o, intizamlı, vəzifələrinin icrasına can yandıran, peşəsini sevən, xüsusi təyinatlı üçün gərəkli keyfiyyətlərə malik, komandirin istənilən döyüş əmrini yerinə yetirməyə mənəvi-psixoloji cəhətdən hazır olan, möhkəm iradəli hərbi qulluqçu idi. İctimai asayişin və təhlükəsizliyin mühafizəsi, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə dəfələrlə xidmətə cəlb edilib.

Dəstə komandirinin sözlərinə görə, Vətən müharibəsi zamanı tabeliyindəki şəxsi heyət əvvəlcə 16077 saylı hərbi hissədə ehtiyat qüvvə qismində yerləşərək döyüş tapşırıqlarının icrasına hazırlıq görüb. Bir müddət sonra Cəbrayıl rayonuna göndəriliblər. Həmin vaxt ayrı-ayrı istiqamətlərdə işğalçı erməni ordusuna qarşı şiddətli döyüşlər davam edib. Müdafiə Nazirliyinin tərkibindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları müxtəlif döyüş əməliyyatlarına qatılıblar.

12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinə Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilən ərazilərinin müdafiəsi, bundan əlavə, ələ keçirilən bəzi hərbi obyektlərin mühafizəsi tapşırılıb. Döyüş bölgəsinə qədəm basdığı gündən Tural qorxmazlığı, hər bir təhlükəyə sinə gərməsi ilə silahdaşlarını da ruhlandırıb.

Müsahibim danışdı ki, oktyabr ayının sonunda Xocavənd rayonunun Hadrut qəsəbəsində cəmləşərək, oradan Şuşa şəhərinə doğru avtomobil karvanı ilə hərəkətə başlayıblar. Xocavənd rayonunun ərazisində avtomobil karvanı düşmənin artilleriya atəşinə tutulub. Bu səbəbdən qruplarla piyada şəkildə hərəkət etmək zərurəti yaranıb. Bir neçə gün ərzində Xocavənd və Xocalı rayonlarının mürəkkəb relyefli ərazilərindən keçməklə Şuşaya məsafəcə yaxınlaşıblar. Şuşa ətrafındakı döyüşlərdə dəstənin zabiti olmuş baş leytenant Təhmasib Mustafayevin rəhbərlik etdiyi qrup xüsusilə fərqlənib. Həmin qrupun tərkibində Tural da mərdliklə vuruşub. Döyüşçülərimiz tərəfindən Şuşa-Laçın yolu üzərindəki mühüm yüksəklik qətiyyətli həmlə ilə alınıb, ermənilərin çoxlu sayda hərbçisi məhv edilib. Yol nəzarətə götürülüb, işğalçılara məxsus bir neçə texnika dəqiq atəşlə vurularaq sıradan çıxarılıb. Ətrafdakı bəzi atəş nöqtələri susdurulub.

2020-ci il noyabrın 4-də Şuşa-Laçın yolu üzərindəki yüksəklik düşmən artilleriyası tərəfindən şiddətli atəşə məruz qalarkən Tural mərmi qəlpələrindən ağır yaralanaraq



şəhid olub. Göstərilən yüksəklikdə qrup komandiri baş leytenant T.Mustafayev və digər hərbi qulluqçularımız şəhadət şərbətini içiblər.

Vətən müharibəsi iştirakçıları: qazi, istefada olan baş çavuş Azər Həsənov, 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin başçavuşu baş çavuş Telman Soltanov, Tovuz rayon polis şöbəsinin post-patrul xidməti bölüyünün polis nəfəri, polis serjantı Mətləb Tağıyev ağrı-acılı, qanlı-qadalı, barıt qoxulu günlərin şahidləridir. Onlar Turalla eyni dəstədə xidmət ediblər və birlikdə döyüş yolu keçiblər. Söylədilər ki, Turala silahdaş kimi həmişə güvəniblər, hərbi kollektivin birliyinə öz töhfəsini verib, yoldaşlarına köməyini əsirgəməyib, komandirləri ilə münasibətində nizamnamə qaydalarını pozmayıb, hərbi biliklərə əzmlə yiyələnib. Qeyd etdilər ki, müharibə zamanı Tural ailəsinin həsrətlə qovuşmağı arzuladığı Cəbrayılda erməni vəhşiliyinin izlərini görərək sarsılıb, bu onun qisas hissini daha da alovlandırıb. Ön cəbhədə hərbi anda sədaqəti, döyüşkənliyi, sayıqlığı, dözümü, atəş altında belə, yaralılara özünü yetirməsi, silahdaşlarına mənəvi qayğısı yaddaşlarda silinməz iz qoyub.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 11 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Turalın döyüş meydanında hərbi əməliyyat nəticəsində odlu silah və digər adi silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olduğu faktı öz əksini tapıb. Ancaq sənəddə hərbi qulluqçumuzun 2020-ci il noyabrın 9-da şəhid olduğu yazılıb.

2020-ci il noyabrın 10-da hərbi qulluqçumuzun nəşi ailəsinin yaşadığı ünvana gətirilib. Həmin tarixdə Beyləqan rayonunun Cərcis peyğəmbər ziyarətgahındakı Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə əsgər T.Bayramlı ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Tural öz nəslinin üçüncü şəhididir. Qohumları Ramiz Xudiyev və Çingiz Misirxanov torpaqlarımız uğrunda şəhadətə yüksəliblər.

Qəhrəmanlı qəsəbəsinin 19 nəfər şəhidi var. Orada şəhidlərin xatirəsinə abidə yaradılıb, onların şəkilləri əks olunan plakatlar quraşdırılıb. Qəsəbədəki məktəbin kitabxanasına cəsur xüsusi təyinatlının adı verilib. Ailəsinin yaşadığı evdə xatirə guşəsi düzəldilib. Bakıda Cəbrayıl rayonuna aid bəzi orta məktəblərdə şəhidin adına siniflər mövcuddur.

Müəlliflər İsmayıl İmanzadə, Tariyel Abbaslının "Zəfər yolunda", Sevindik Nəsiboğlunun "Möhtəşəm zəfərin nişanəsi" kitablarında, Hacı Nərimanoğlunun "Şəhidlər" nəşrində Turala həsr edilən məqalələr və şeirlər dərc olunub. Dövri mətbuat, ayrı-ayrı televiziya kanalları, sosial şəbəkələrdə igidin ömür yolu işıqlandırılıb, haqqında videoçarxlar hazırlanıb.

Şəhidin qardaşı Amin Bayramlı polis əməkdaşıdır, rütbəsi serjantdır, Beyləqan rayonunda ictimai asayişin keşiyində vicdanla xidmət aparır. Aminin oğlu qardaşının adını daşıyır.

Qeyd edim ki, Tural nişanlı olub, xoşbəxt bir ailə qurmağı arzulayıb. Doğmaları onun toyuna hazırlaşıblar. Ancaq ürəyi Vətən eşqi ilə döyünən gəncin taleyinə şəhadət yazılıb. Ata-anasının duaları onu həyatda çox qoruyub. Ön cəbhədən sonuncu dəfə zəng edəndə ata-anasından halallıq istəyib, qardaşından xahiş edib ki, onlardan muğayat olsun. Bununla yanaşı, Aminə deyib ki, burada üzərimizdən "məcburi köçkün" adını silmək üçün döyüşürük, canımız Vətənə fədadır!

**Onun adı Turaldı,**
**Düşməndən qisas aldı.**
**Şuşa üçün qan töküb,**
**Şəhidliyə ucaldı.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİDLƏRİMİZİN XATİRƏSİNİ ANMAQ BİZİM MÜQƏDDƏS BORCUMUZDUR

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı, eləcə də şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.

12318 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçısı mayor Asim Hüseynovun rəhbərliyi ilə xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun Daxili Qoşunların şəhidi kiçik gizir Məmmədov Anar Zahəddin oğlunun Saatlı rayonunun Mustafabəyli kəndində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. Öncə hərbi qulluqçularımız tərəfindən şəhidin Saatlı rayonunun Qıraqlı kənd qəbiristanlığındakı məzarı ziyarət olunub.



Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki, kiçik gizir Anar Məmmədov 1992-ci il oktyabrın 25-də Saatlı rayonunun Azadkənd kəndində anadan olub. Zahəddin Məmmədovun və Qabiliyyət Məmmədovanın qurduğu ailənin ortancıl övladı idi. Onun bir bacısı və bir qardaşı var. Evli idi. Solmaz adlı bir qız övladı yadigar qalıb.

Vüqar Əzimov adına Qıraqlı kənd tam orta məktəbinin 9-cu sinfini bitirən Anar Sabirabad rayonundakı Sosial-İqtisad Kollecinə qəbul olunub. 2012-ci ildə kolleci "Dövlət yol polisində inzibati hüquq fəaliyyəti-yol polisi müfəttişliyi" ixtisası üzrə bitirib. Hələ uşaq yaşlarından idmana böyük marağı olduğundan, təhsil aldığı illərdə məşğul olduğu qaydasız döyüş və boks idman növləri üzrə dəfələrlə yüksək nəticələr göstərib, respublika çempionu adını qazanıb. 2012-2014-cü illərdə Anar Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

2014-2019-cu illərdə 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun qumbaraatan köməkçisi, atıcı-qumbaraatan köməkçisi vəzifələrində xidmət edib. 2019-cu ilin dekabr ayında isə xüsusi həmlə qrupunun yarımqrup komandiri vəzifəsinə təyin olunub. O, 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində döyüş zamanı aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə kiçik gizir Anar Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.




Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Anarın atası və anası ilə söhbət ediblər. Söhbət zamanı onlar cəsur silahdaşımızın ömür yolu barədə xatirələrini bölüşüblər.

Şəhidin atası qeyd edib ki, Anar çox mehriban, ailəcanlı və zarafatcıl bir övlad idi. O, ailəsinə hər zaman qayğı göstərib, telefon zəngləri zamanı hər kəslə dərindən maraqlanıb. Z.Məmmədov həmçinin bildirib ki, Mustafabəyli kəndinin girişində Anarın əziz xatirəsinin əbədiləşdirilməsi üçün şəhidimizin adına abidə-bulaq kompleksi ucaldılıb.

Şəhidin anası Q.Məmmədova oğlu barədə fəxarətlə və qürurla danışıb. O diqqətə çatdırıb ki, övladlarına tərbiyə verərkən onlara 1941-1945-ci illərdə alman faşistlərinə qarşı döyüşlərdə və Qarabağ müharibəsi zamanı qəhrəmanlıq nümayiş etdirərək adlarını tarixə yazdıran Azərbaycan oğulları barədə məlumatlar çatdırmaqla onları yüksək vətənpərvərlik ruhunda böyüdüb. Qabiliyyət xanım vurğulayıb ki, övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik Anarın torpaqlarımızın azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır.

Mayor A.Hüseynov Vətən müharibəsində şəhid və qazilərimizin fədakarlığı sayəsində ölkəmizin qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edib. O, həmçinin Silahlı Qüvvələrimizin 19-20 sentyabr tarixlərində Qarabağ bölgəsində apardığı uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın suverenliyinin tam bərpa edildiyini, bu gün üçrəngli bayrağımızın Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və işğaldan azad edilmiş digər bölgələrimizdə qürurla dalğalandığını diqqətə çatdırıb.

Onu da qeyd edim ki, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun qardaşı Azər daxili işlər orqanlarında xidmətə qəbul edilib. Ümumiyyətlə, müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldığını söyləyən Məmmədovlar ailəsi buna görə dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 28.11.2023 15:31 Page 1



# ŞƏXSİ HEYƏT YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI NÜMAYİŞ ETDİRİR

99713 saylı hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyü tərəfindən təmin olunur. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölmənin şəxsi heyəti ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir. Şəxsi heyət yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizam nümayiş etdirir.




Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlıqlarını, mənəvi-psixoloji durumlarını əsas şərt kimi dəyərləndirən bölük komandiri baş leytenant Tural Nəsirli digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.




Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Ümumiyyətlə, xidmətə cəlb edilənədək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu mayor Cəmilə Ələkbərova da xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır. Komendant bölüyündə saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır".



Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin müavini baş leytenant Həsən Allahverdiyevin, onların mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılmasında isə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rüfət Əhmədovun yaxından iştirak etdiyini deyən baş leytenant T.Nəsirli hər iki zabitin bacarıqlı və çalışqan olduğunu bildirdi.

Komandir onu da əlavə etdi ki, şəxsi heyətlə mütəmadi olaraq təşkil edilən məşğələlər nəticəsində komendant bölüyü 2021-2022-ci illərdə xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə əsgəri bölüklər arasında birincilik qazanıb: "Bu uğur bütün şəxsi heyətin əzmkarlığının nəticəsi kimi hər birimizi sevindirir və bundan sonra da xidməti fəaliyyətimizdə müsbət tərəfdən fərqlənməyimizi stimullaşdırır. Bölük komandiri kimi intizamı və sayıqlığı ilə fərqlənən hərbi qulluqçulardan gizir Zərbalı Cəbiyev, kiçik çavuş Marat Saruxanov, əsgərlər Xatəm Abbasov, Sevindik Əliyev, Rauf Allahverdiyevin adlarını çəkməyi və hər birinə uğurlu xidmətinə görə təşəkkür etməyi özümə borc bilirəm".

**kapitan Nigar Ağayeva**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN VƏ KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

16073 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Cavad Abdullayev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi.



Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Kapitan C.Abdullayev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil edildiyini də söylədi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit yeməkxana rəisi baş çavuş Siruz Mirzəliyevin xidmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi - aşpazlardan Bəsti Məmmədovanın və Ədilə Məmmədovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

# CAMAŞIRXANA FƏALİYYƏTİNİ UĞURLA TƏŞKİL EDİR

17074 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Qeyd etmək lazımdır ki, qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsində mülki işçilərin əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması mülki işçilər tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Faiq Abdullayev tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Gülbəniz Əhmədova, Günel Malıyeva və Ayşə Ömərova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısı ilə yanaşırlar.





Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısına qoyduğu ən mühüm tələbdir.

İşçilər üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirirlər.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# XİDMƏTİLƏ ÖZÜNÜ DOĞRULDAN ƏSGƏR

Əsgər Sənan Nağıyev 12318 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən, nizam-intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Vətənpərvər əqidəli hərbi qulluqçu qısa müddətdə əsgər yoldaşlarının hörmətini qazanıb. O, 2002-ci il avqustun 1-də Qazax rayonunun Çaylı kəndində anadan olub. 2019-cu ildə Elşən Cəfərov adına 2 saylı Qazax rayonu Çaylı kənd tam orta məktəbini bitirib. 2019-2023-cü illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində ali təhsil alıb. 2023-cü ilin iyul ayından müddətli həqiqi hərbi xidmətə çağırılıb, avqust ayından 12318 saylı hərbi hissənin komendant bölüyündə xidmət edir.



Hərbi biliklərə xüsusilə maraq göstərir. Öz üzərində çalışır, çünki yaxşı başa düşür ki, hərbçi əzmkarlıq göstərərsə, qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını bacarıqla yerinə yetirə, eləcə də qəflətən yarana biləcək çətinlikləri çevik surətdə və dəqiqliklə aradan qaldıra bilər. Təqdirəlayiq haldır ki, Sənan hərbi xidmətin bütün çətinliklərinin öhdəsindən lazımınca gəlir.

Əsgər S.Nağıyev komendant bölüyündə xidmətin məsuliyyətini dərindən dərk edərək, üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır. Komandir heyətinin inamını qazanıb. O, bundan sonra da ona olan etimadı doğrultmaq istədiyini bildirir.

Bu cür məsuliyyətli hərbi qulluqçuların nümunəvi xidməti bölükdə təlim-tərbiyə işinin müsbət nəticəsidir.

# PEŞƏ HAZIRLIĞI İLƏ FƏRQLƏNƏN RADİOTELEFONÇU

12318 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər İsmayıl Cəlilovdur. O, 2023-cü ilin iyul ayından 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. 2023-cü il avqustun 21-dən sentyabrın 28-dək 12318 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu keçərək təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.



Əsgər İ.Cəlilov 2000-ci il noyabr ayının 14-də Oğuz rayonunun Mollalı kəndində anadan olub. 2006-2017-ci illərdə Oğuz rayonu Tərkəş kənd tam orta məktəbində, 2017-2021-ci illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində kompyuter mühəndisi ixtisası üzrə təhsil alıb. 2021-2023-cü illərdə Bakı Dövlət Universitetində kompyuter elmləri və texnologiyaları ixtisası üzrə magistr elmi dərəcəsi alıb.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir. Məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət edir, rabitə döyüş postunda daxili səliqə-sahmanı qoruyub saxlayır.

Hərbi qulluqçu peşə hazırlığının təkmilləşdirilməsi üçün əzmlə çalışır, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur. İsmayıl Daxili Qoşunların əsgəri olması ilə qürur duyur.

**12318 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

**-YENİLİKLƏR-**

## Növbəti Su-34 bombardmançıları Rusiya Aerokosmik Qüvvələrinə təhvil verilib



Dövlət müdafiə sifarişi çərçivəsində Birləşmiş Aviasiya Korporasiyasının (UAC) Novosibirsk Aviasiya Zavodu tərəfindən istehsal edilən Su-34 bombardmançı təyyarələrinin daha bir partiyası Rusiya Müdafiə Nazirliyinə çatdırılıb. "Poliqon" saytı "Rostex" Dövlət Korporasiyasının Mətbuat xidmətinə istinadən xəbər verir ki, sifarişçiyə çatdırılan Su-34-lər zavod tərəfindən həyata keçirilən yer və uçuş sınaqlarından uğurla keçib.

"UAC-ın tərkibindəki Novosibirsk Aviasiya Zavodu dövlət müdafiə sifarişlərinin mühüm icraçılarından biridir. Şirkət artıq gələn ilin proqramını yerinə yetirməyə başlayıb və istehsalın həcmi əhəmiyyətli dərəcədə artırılacaq. Lazımi istehsal ehtiyatı yaradılıb. Bundan əlavə, zavod istismarda olan təyyarələrə texniki xidmətin göstərilməsi və uçuşa yararlılığının saxlanılması ilə məşğuldur", – deyə Birləşmiş Aviasiya Korporasiyasının baş direktoru Yuri Slyusar bildirib.

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Xaliq Eyvazova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların və 99713 saylı hərbi hissənin komandanlığı polkovnik Alim İsmayılova **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan polkovnik-leytenant Vaqif Əliyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı baş çavuş Yasəf Quliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı çavuş Vasif Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı əsgər Məmmədqulu İsmayılova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000